TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

2026-ci ilin I rübü üzrə ELEKTRON BÜLLETEN

Mündəricat

3-5	Xarici kvalifikasiyaların tanınması
6-8	Qeyri-formal və informal təhsilin tanınması
9	Keyfiyyət təminatı üzrə monitorinqlərlə bağlı təlimlər
10-11	Təhsildə Keyfiyyət: Dayanıqlılıq və İnnovasiya Forumu – 2026
12	“Azərbaycan İES” MMC-də enerji klasteri çərçivəsində vorkşop
13-14	“Keyfiyyət Elçisi” layihəsinin növbəti qalibləri
15-18	İnformasiya təminatı və vətəndaş məmnunluğu
18-22	Ekspert rəyi
23	Akkreditasiya prosesi ilə bağlı tələbə təəssüratı

Xarici kvalifikasiyaların tanınması

"Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın 6.2-ci bəndinə əsasən, "Müəllimlik", "Mühəndislik" və "Hüquqşünaslıq" ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təqdim etdiyi siyahı əsasında Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahanda müvəffəqiyyət qazanması (keçid balını toplaması) tələb olunur.


17 mart 2026-cı il tarixində DİM tərəfindən keçirilmiş peşə tanınması imtahanında **146** namizəd iştirak edib, onlardan yalnız **18** nəfəri keçid balını toplayıb. **18** ixtisas üzrə müvəffəqiyyət göstəricisi **12%** təşkil edib. İmtahanda iştirak edən və keçid balını toplayan namizədlərin ixtisasları üzrə statistik məlumatlarını keçid vasitəsilə əldə edə bilərsiniz.

146 nəfər ❯ **18 ixtisas üzrə 18 nəfər müvəffəqiyyət qazanıb**

İmtahanda ixtisaslar üzrə müraciət sayına uyğun olaraq, ən çox imtina alan **3** ixtisas üzrə TKTA tərəfindən ölkələr üzrə təhlil aparılıb.


Belə ki, peşə tanınması imtahanında **"Hüquqşünaslıq"** ixtisası üzrə **79** nəfər iştirak edib, onlardan yalnız **5-i** uğurlu nəticə əldə edib.






Xarici kvalifikasiyaların tanınması


Belə ki, peşə tanınması imtahanında **“Hüquqşünaslıq”** ixtisası üzrə **79** nəfər iştirak edib, onlardan yalnız **5** nəfəri başqa sözlə, cəmi **6.4%**-i uğurlu nəticə əldə edib. Beləliklə, **“Hüquqşünaslıq”** ixtisası üzrə peşə tanınması əldə etmək istəyən namizədlərin **94%**-i müvafiq imtahanda uğursuz nəticə göstərib.




Eyni zamanda, **“Müəllimlik”** ixtisası üzrə peşə tanınması imtahanında **21** nəfər iştirak edib, onlardan yalnız **9**-u uğurlu nəticə əldə edib. Beləliklə, **“Müəllimlik”** ixtisası üzrə peşə tanınmasını əldə etmək istəyən namizədlərin **57%**-i müvafiq imtahanda uğursuz nəticə göstərib.



Həmçinin, **“Mühəndislik”** ixtisası üzrə peşə tanınması imtahanında **46** namizəd iştirak edib, onlardan yalnız **4**-ü uğurlu nəticə göstərib. Beləliklə, **“Mühəndislik”** ixtisası üzrə peşə tanınması əldə etmək istəyən namizədlərin **91%**-i müvafiq imtahanda uğursuz nəticə göstərib.



Həmçinin, **“Yanğın təhlükəsizliyi mühəndisliyi”** ixtisası üzrə peşə tanınması imtahanında **17** nəfər iştirak edib. Təəssüf ki, namizədlərdən **heç biri** uğurlu nəticə əldə etməyib. Beləliklə, **“Yanğın təhlükəsizliyi mühəndisliyi”** ixtisası üzrə peşə tanınması əldə etmək istəyən namizədlərin **100%**-i müvafiq imtahanda uğursuz nəticə göstərib.



Qeyri-formal və informal təhsilin tanınması

2026-ci ilin I rübü ərzində TKTA tərəfindən Qeyri-formal və informal təhsilin tanınması (QFİTT) istiqamətində formal təhsilə çıxış imkanları məhdud olan vətəndaşların “Avtomobil mühərriklərinin yığıcısı”, “Aşpaz”, “Bərbər”, “Bərbər-vizajist-manikürçü”, “Dərzi” və “Qənnadçı, şirniyyatçı” peşə ixtisasları üzrə qeyri-formal və informal yollarla əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması həyata keçirilib.

➢ Peşə imtahanları və tanınma



2026-ci ilin I rübü ərzində TKTA tərəfindən QFİTT istiqamətində formal təhsilə çıxış imkanları məhdud olan vətəndaşların “Avtomobil mühərriklərinin yığıcısı”, “Aşpaz”, “Bərbər”, “Bərbər-vizajist-manikürçü”, “Dərzi” və “Qənnadçı, şirniyyatçı” peşə ixtisasları üzrə qeyri-formal və informal yollarla əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması həyata keçirilib. Qeyd edək ki, 2026-ci ilin I rübündə QFİTT istiqamətində müxtəlif ixtisaslar üzrə ümumilikdə **64** nəfər TKTA-ya müraciət edib. Təqdim edilmiş sənədlərə ilkin baxış keçirildikdən sonra namizədlərin bilik səviyyəsinin qiymətləndirilməsi məqsədilə 50 nəfər ərizəçi nəzəri imtahan mərhələsinə cəlb olunub. Onlardan **29** nəfəri məqbul, **21** nəfəri isə qeyri-məqbul nəticə göstərib. Növbəti mərhələdə bacarıq, səriştə və təcrübələrin qiymətləndirilməsi prosesinə cəlb olunan **6** nəfər uğur qazanaraq peşə sənədi əldə edib, **23** nəfər isə praktiki imtahanı gözləmə mərhələsindədir. Bununla yanaşı, ötən il nəzəri imtahan mərhələsini uğurla başa vurmuş **11** nəfərin cari ildə bacarıq və səriştələri qiymətləndirilib, onlardan **4** nəfər müsbət nəticə göstərərək peşə sənədi əldə edib. Yekunda cari ildə **10** nəfər vətəndaş peşə sənədi əldə edib.





Qeyri-formal və informal təhsilin tanınması



Cari ilin I rübündə QFİTT istiqamətində regionlarda da tədbirlər davam etdirilib. Cəlilabad və Biləsuvar rayonlarından olan 39 vətəndaşın “Bərbər”, “Bərbər-vizajist-manikürçü”, “Dərzi” və “Qənnadçı, şirniyyatçı” peşə ixtisasları üzrə qeyri-formal və informal təhsil yolu ilə əldə etdikləri biliklərin qiymətləndirilməsi (nəzəri imtahan) həyata keçirilib. İlkin mərhələni müvəffəqiyyətlə tamamlayan 20 ərizəçinin ikinci mərhələdə (praktiki imtahan) bacarıq, səriştə və təcrübələrinin qiymətləndirilməsi nəzərdə tutulur.



QFİTT istiqamətində “Bərbər-vizajist-manikürçü” ixtisası üzrə nəzəri və praktiki imtahanların qiymətləndirilməsində iştirak edən “Saxara” gözəllik şəbəkələrinin rəhbəri Sərxan Qulamlının təəssüratlarını aşağıdakı keçid vasitəsi ilə öyrənə bilərsiniz.

https://www.instagram.com/reel/DVvcMR8gEB4/?igsh=ODltem53bzhncXEy

QFİTT istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi

27–29 yanvar 2026-cı il tarixlərində TKTA əməkdaşları İrlandiya Respublikasının Dublin şəhərində keçirilən “Qeyri-formal və informal təhsilin tanınması mexanizmlərinin təkmilləşdirilməsi” adlı beynəlxalq tədbirdə iştirak edib.





Tədbirdə TKTA-nın Kvalifikasiyaların tanınması departamentinin direktoru Elmir Həsənov və QFİTT şöbəsinin baş məsləhətçisi Vüsalə Mütəllibova ölkəmizi təmsil ediblər.

Beynəlxalq tədbirin əsas məqsədi QFİTT sahəsində İrlandiya təcrübəsinin öyrənilməsi, eyni zamanda iştirakçı ölkələr üçün qeyri-formal və informal yollarla əldə edilmiş kvalifikasiyaların tanınması mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübənin tətbiqi üzrə fikir və təcrübə mübadiləsinin aparılması olub.

Məlumat üçün qeyd edək ki, tədbirdə Balkan, Qafqaz və Mərkəzi Asiya ölkələri, həmçinin Türkiyə Respublikasının müvafiq qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində, həmçinin Karlou şəhərində fəaliyyət göstərən tanınma mərkəzlərinə – Cənub-Şərqi Texnologiya Universitetinə və Kilkenni–Karlou Təhsil və Təlim Şurasına sahə səfərləri təşkil olunub, QFİTT üzrə mövcud yanaşmalar yerində öyrənilib.

https://tkta.edu.az/az/media/news/1390

Keyfiyyət təminatı üzrə monitorinqlərlə bağlı təlimlər



29-30 yanvar 2026-cı il tarixlərində TKTA tərəfindən “Məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması” və “Xarici keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi” tədbirlərinin icrası çərçivəsində məktəbəqədər təhsil müəssisələrində (MTM) keyfiyyət monitorinqlərinin aparılmasına cəlb edilmiş ekspertlər üçün metodoloji dəstək məqsədilə təlimlər təşkil olunub.

İki gün davam edən və ümumilikdə 20 ekspertin cəlb olunduğu təlimlərin əsas məqsədi MTM-lərdə keyfiyyətin qiymətləndirilməsi üzrə tətbiq olunan şkala əsasında monitorinq prosesinin vahid yanaşma əsasında həyata keçirilməsini təmin etmək, müşahidə və qiymətləndirmə bacarıqlarını inkişaf etdirmək, həmçinin ekspertlərin peşəkarlıq səviyyəsini artırmaqdır.

Qeyd edək ki, cari il ərzində ölkənin müxtəlif regionlarında fəaliyyət göstərən 100 MTM-nin keyfiyyət monitorinqinə cəlb edilməsi planlaşdırılır. Aparılacaq monitorinqlər məktəbəqədər təhsildə tədris mühitinin, pedaqoji proseslərin və idarəetmə mexanizmlərinin keyfiyyətinin sistemli və obyektiv şəkildə qiymətləndirilməsinə xidmət edəcək.

Məlumat üçün qeyd edirik ki, son 3 ildə həyata keçirilən keyfiyyət monitorinqlərinə ölkənin müxtəlif regionlarından 250 MTM cəlb olunub.





Təhsildə Keyfiyyət: Dayanıqlılıq və İnnovasiya Forumu – 2026



13 fevral 2026-cı il tarixində Mingəçevir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Mingəçevir Dövlət Universiteti (MDU) və TKTA-nın birgə təşkilatçılığı ilə ali və orta ixtisas təhsilində keyfiyyət təminatı, innovativ yanaşmalar və universitet-sənaye əməkdaşlığı mövzularına həsr olunmuş forum keçirilib. Tədbirdə Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, MDU-nun rektoru Anar Eminov, TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru Vilayət Vəliyev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov, eləcə də 29 ali təhsil müəssisəsinin (ATM) tədris və keyfiyyət təminatı üzrə mütəxəssisləri, professor-müəllim heyəti və müxtəlif şirkət və təşkilatların nümayəndələri iştirak ediblər.

Forumun əsas məqsədi ATM-lərdə keyfiyyət təminatı sistemlərinin gücləndirilməsi, dayanıqlı inkişaf yanaşmalarının tətbiqi, beynəlxalq akkreditasiya təcrübəsinin müzakirəsi və universitet-sənaye əməkdaşlığının inkişafı istiqamətində fikir mübadiləsinin aparılması olub.

Tədbir Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra forumun tanıtım videoçarxı təqdim olunub və iştirakçılar tərəfdaş təşkilatların stendləri ilə tanış olublar.

Forumda açılış nitqi ilə çıxış edən Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov ölkədə təhsilin keyfiyyətinin yüksəldilməsinin dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu qeyd edib və bu istiqamətdə ATM ilə dövlət qurumları, həmçinin özəl sektor arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb.



Təhsildə Keyfiyyət: Dayanıqlılıq və İnnovasiya Forumu – 2026





MDU-nun rektoru Anar Eminov çıxışında Forumun rəhbərlik etdiyi universitetin keyfiyyət təminatı, dayanıqlı inkişaf və innovasiya istiqamətində həyata keçirdiyi islahatların davamı olduğunu bildirib.

O, qeyd edib ki, tədbirdə ölkənin müxtəlif ali, peşə və orta ixtisas təhsil müəssisələrinin və çeşidli sənaye təşkilatlarının nümayəndələri təmsil olunur və Forum təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır.

TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov çıxışında belə platformaların ATM-lərdə keyfiyyət mədəniyyətinin inkişafına mühüm töhfə verdiyini vurğulayıb. O, bildirib ki, Agentlik ali təhsildə daxili və xarici keyfiyyət təminatı mexanizmlərinin gücləndirilməsi, akkreditasiya proseslərinin təkmilləşdirilməsi və universitetlərin beynəlxalq rəqabətqabiliyyətinin artırılması istiqamətində fəaliyyətini davam etdirir.

T.Əhmədov qeyd edib ki, universitetlər arasında təcrübə mübadiləsi və institusional əməkdaşlıq keyfiyyət təminatı sistemlərinin inkişafında mühüm rol oynayır.

Forum çərçivəsində universitet-sənaye əməkdaşlığının genişləndirilməsinə yönəlmiş bir sıra əməkdaşlıq sənədləri də imzalanıb. İmzalanan memorandumlar tələbələr üçün praktiki təhsil imkanlarının genişləndirilməsi, innovativ texnologiyaların tətbiqi və tətbiqyönümlü kadr hazırlığının gücləndirilməsinə xidmət edir.

Tədbir çərçivəsində "Tədrisdən istehsalata: dayanıqlı universitet-sənaye əməkdaşlığı", "Beynəlxalq akkreditasiya və dayanıqlı keyfiyyət təminatı" və "Ali təhsildə keyfiyyət və dayanıqlılıq: qlobal trendlər" mövzularında panel müzakirələri təşkil olunub. Panel iclaslarında ATM-lərin nümayəndələri, keyfiyyət təminatı üzrə mütəxəssislər və sənaye tərəfdaşları çıxış edərək keyfiyyət təminatı sistemlərinin inkişafı, akkreditasiya prosesləri və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı məsələlərini müzakirə ediblər.

Forum süni intellekt texnologiyalarının tədris və keyfiyyət təminatı proseslərində tətbiqinə həsr olunmuş vorkşopla davam edib. Vorkşop çərçivəsində rəqəmsal həllərin təhsildə tətbiqi və innovativ yanaşmalar ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda çıxış edən MDU-nun rektoru Anar Eminov və TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov Forumun ali təhsildə keyfiyyət təminatı sahəsində əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsi baxımından mühüm platforma olduğunu vurğulayıblar.

Qeyd olunub ki, Forum ATM-ləri, dövlət qurumları və sənaye nümayəndələri arasında əməkdaşlığın inkişafına, keyfiyyət mədəniyyətinin gücləndirilməsinə və ali təhsildə beynəlxalq standartlara uyğun yanaşmaların tətbiqinə töhfə verir.



“Azərbaycan İES” MMC-də enerji klasteri çərçivəsində vorkşop



MDU və AzTU-nun birgə təşkilatçılığı ilə “Azərbaycan İES” MMC-də “Azərbaycanda elektrik enerjisinin tələb və təklif tarazlığı - istehsal, ötürmə və istehlakın balanslaşdırılması” mövzusunda vorkşop keçirilib.

Vorkşop MDU ilə AzTU arasında imzalanmış “Elektroenergetika tədqiqat klasteri”nin birgə yaradılması və istifadəsinə dair Strateji Əməkdaşlıq Memorandumu çərçivəsində təşkil olunub.

Tədbirdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, MDU-nun rektoru Anar Eminov və AzTU-nun rektoru Vilayət Vəliyev, “AzərEnerji” ASC, “Azərbaycan İES” MMC və “Mingəçevir SES” MMC-nin rəhbər və işçi heyəti, eləcə də hər iki ATM-in əməkdaşları iştirak ediblər.



AzTU-nun rektoru Vilayət Vəliyevin moderatorluğu ilə keçən vorkşopda “AzərEnerji” ASC-nin İdarə Heyəti sədrinin müşaviri Üzeyir Yusifov, “Azərbaycan İES” MMC-nin direktoru Təhmasib Hüseynov, “Mingəçevir SES” MMC-nin direktoru Oqtay Pirverdiyev, AzTU-nun prorektoru Fariz Məmmədov, AzTU-nun Energetika fakültəsinin dekanı Hüseynqulu Quliyev, həmçinin MDU-nun müəllimi və “Azərbaycan İES” MMC-nin əməkdaşı Qədir Məmmədli təqdimatlarla çıxış ediblər.

Çıxışlarda elektrik enerjisi sistemində tələb və təklifin balanslaşdırılması, istehsal güclərinin optimallaşdırılması, ötürmə şəbəkələrinin rolu, bərpaolunan və ənənəvi enerji mənbələrinin inteqrasiyası, eləcə də universitet-sənaye əməkdaşlığının əhəmiyyəti geniş şəkildə müzakirə olunub. Qeyd edilib ki, bu cür birgə təşkil olunan vorkşoplar kadr potensialının inkişafına mühüm töhfə verir.



“Keyfiyyət Elçisi” layihəsinin növbəti qalibləri

Təhsildə keyfiyyət mədəniyyətinin təşviqi və tələbələrin bu prosesdə fəal iştirakının təmin olunması məqsədilə TKTA tərəfindən həyata keçirilən “Keyfiyyət Elçisi” müsabiqəsinin qalibləri ilə görüş keçirilib. Cari ilin fevral ayına təsadüf edən görüşdə müsabiqə və təlim proqramını uğurla başa vuran tələbələrə sertifikatlar təqdim olunub, həmçinin sözügedən təşəbbüsün ali təhsil sistemində rolu və gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb.



Tədbirdə çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov iştirakçıları salamlayaraq onları müsabiqə və müsahibə mərhələlərini uğurla keçmələri münasibətilə təbrik edib. O qeyd edib ki, ali təhsildə keyfiyyətin təmin olunması yalnız idarəetmə və institusional mexanizmlərlə məhdudlaşmır, bu prosesdə tələbələrin fəal mövqeyi də xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, “Keyfiyyət Elçisi” təşəbbüsü tələbələrin ali təhsildə keyfiyyət təminatı sahəsində bilik və bacarıqlarını artırmaqla yanaşı, onların bu sahədə fəal iştirakını təşviq edir və keyfiyyət mədəniyyətinin geniş yayılmasına töhfə verir.



“Keyfiyyət Elçisi” layihəsinin növbəti qalibləri

Müsabiqə könüllülük prinsipi əsasında təşkil olunub. İştirakçılara təhsildə keyfiyyət təminatı mövzusunda beş sual təqdim edilib və onlar bu suallar əsasında esse hazırlayıblar. Ümumilikdə, 25 ATM-i təmsil edən tələbələrdən 200 müraciət daxil olub. İlkin qiymətləndirmə mərhələsində 85 esse qənaətbəxş nəticə göstərərək növbəti mərhələyə keçib. Sonda isə 22 iştirakçı müəyyən edilmiş meyarlara tam uyğun olduğu üçün proqramın növbəti mərhələsində iştirak hüququ qazanıb.

Seçilmiş 22 tələbə ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən 10 ATM-i təmsil edib. Onlar üçün TKTA tərəfindən iki moduldan ibarət onlayn təlim proqramı təşkil olunub. Təlimlər zamanı ATM-lərdə daxili keyfiyyət təminatı mexanizmlərinin qurulması və fəaliyyəti, həmçinin institusional və proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları barədə iştirakçılara ətraflı məlumat verilib.

Təlim proqramının ən maraqlı mərhələlərindən biri isə praktiki tapşırıqlar olub. Bu mərhələdə tələbələr onlara təqdim edilən hekayələri təhlil edərək müxtəlif indikatorlar üzrə 0–3 ballıq şkala əsasında qiymətləndirmələr aparıb, aşkar olunan problemlər və inkişaf istiqamətləri üzrə əsaslandırılmış tövsiyələr hazırlayıblar.

Bu proses iştirakçıların analitik düşünmə, tənqidi yanaşma və sübuta əsaslanan qərarvermə bacarıqlarının inkişafına mühüm töhfə verib. Eyni zamanda, tələbələr ATM-lərin fəaliyyətinin qiymətləndirilməsi mexanizmləri ilə yaxından tanış olmaq imkanı əldə ediblər.

Görüşün sonunda TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov qalib tələbələrə sertifikatlar təqdim edib. O, bildirib ki, “Keyfiyyət Elçisi” təşəbbüsü tələbələrin ali təhsildə keyfiyyət təminatı proseslərinə daha fəal cəlb olunmasına, onların institusional inkişaf proseslərində iştirakına və gələcəkdə bu sahədə peşəkar kadr kimi formalaşmasına mühüm zəmin yaradır.

Qeyd edək ki, “Keyfiyyət Elçisi” təlim proqramı tələbələrin ali təhsildə keyfiyyət təminatı və akkreditasiya prosesləri barədə biliklərini artırmaqla yanaşı, onların real situasiyalar əsasında təhlil aparmaq və praktik bacarıqlar qazanmaq imkanlarını genişləndirir. Proqram çərçivəsində əldə olunan təcrübə iştirakçıların gələcəkdə akkreditasiya proseslərində ekspert və ya potensial qiymətləndirici kimi iştirak etməsi üçün də mühüm imkanlar yaradır. Eyni zamanda, bu təşəbbüs ATM-lərdə keyfiyyət mədəniyyətinin formalaşmasına və davamlı inkişafına töhfə verir.



İnformasiya təminatı və vətəndaş məmnunluğu

Media ilə iş:

“Təhsildə Keyfiyyət, Dayanıqlılıq və İnnovasiya Forumu – 2026” çərçivəsində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov media nümayəndələrinə açıqlama verib.

https://muallim.edu.az/sedr-daxili-keyfiyyet-teminati-sistemi-ali-tehsilde-davamli-inkisafin-esas






Baku TV-də xaricdə təhsil şirkətlərinin fəaliyyəti ilə bağlı videosujet yayımlanıb. TKTA-nın İnformasiya və insan resursları şöbəsinin müdiri Rövşən Nəzərov mövzu ilə bağlı əsas məqamlar barədə məlumat verib.

www.youtube.com/watch?v=M7w_yAufgo8&t=13s

TKTA-nın yeni istifadəyə verilmiş internet səhifəsində “Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması”na dair video-təlimat ictimaiyyətə təqdim olunub.

www.youtube.com/watch?v=SDq7ASt0-qA






TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov “İki sahil” qəzetinə Agentliyin fəaliyyəti, əldə edilən uğurlar və gələcək prioritetlər barədə müsahibə verib.


https://ikisahil.az/post/637092-share

Xəzər TV və Baku TV-də xarici dövlətlərin ali təhsil müəssisələrindən əldə olunan kvalifikasiyaların tanınması ilə bağlı videosujetlər yayımlanıb. TKTA-nın İnformasiya və insan resursları şöbəsinin müdiri Rövşən Nəzərov sözügedən məsələ ilə bağlı açıqlama verib.

https://www.youtube.com/watch?v=BGiIQVQeWu8

https://www.youtube.com/watch?v=zlS6NV4pUqQ





Cari ilin əvvəlindən etibarən TKTA-nın yeni internet səhifəsi fəaliyyətə başlayaraq vətəndaşların istifadəsinə verilib. Məlumat üçün bildiririk ki, sözügedən internet səhifəsində bir sıra yeniliklər mövcuddur. Belə ki, burada süni intellekt texnologiyalarından istifadə olunmaqla, vətəndaşların operativ məlumatlandırılması üçün “Chat-box” bölməsi, həmçinin fiziki olaraq vətəndaş qəbulunda iştirak etmək imkanı olmayan şəxslər üçün videozəng bölməsi yaradılıb. Bununla da, vətəndaşlarımız Agentliyə gəlmədən elektron qaydada vətəndaş qəbulunda iştirak etmək hüququ əldə ediblər. Daha ətraflı məlumat əldə etmək üçün vətəndaşlarımız tkta.edu.az keçidindən istifadə edərək Agentliyin rəsmi internet səhifəsinə daxil ola bilərlər.

Vətəndaş məmnuniyyəti

2026-ci ilin I rübü ərzində vətəndaş müraciətlərinin cavablandırılması məqsədilə aylıq əsasda sosial şəbəkə hesablarında əvvəlcədən elan edilməklə, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən vətəndaşların qəbulu təşkil edilib.

Qəbul zamanı vətəndaşlar əsasən, xarici dövlətlərin ATM-lərindən əldə etdikləri kvalifikasiyaların tanınması ilə bağlı müraciət ediblər.

Qəbula yazılmış vətəndaşlar İdarə Heyətinin sədri və müvafiq struktur bölmə rəhbərləri tərəfindən dinlənilib, onların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, yanvar-mart ayları üzrə qəbul cədvəlinə uyğun olaraq, Agentliyin İdarə Heyətinin sədri eyni zamanda, struktur bölmə rəhbərləri tərəfindən ümumilikdə **168** vətəndaşın qəbulu həyata keçirilib.

Məlumat üçün bildiririk ki, vətəndaşlar qəbula yazılmaq üçün **146-8 Çağrı Mərkəzi**nə zəng edərək qeydiyyatdan keçə bilərlər.



https://tkta.edu.az/az/media/multimedia/video-gallery/1388
https://tkta.edu.az/az/media/multimedia/video-gallery/1389
https://tkta.edu.az/az/media/multimedia/video-gallery/1391

Vətəndaş məmnuniyyəti


Vətəndaşlar tərəfindən birbaşa olaraq, həmçinin ETN vasitəsilə Agentliyə yönləndirilən müraciətlər və sosial şəbəkələrdən daxil olan sorğular araşdırılaraq müvafiq qaydada cavablandırılıb.







1 yanvar - 31 mart 2026-ci il tarixlərində Agentliyə ünvanlanan **9318** vətəndaş müraciətinə baxılıb.





Azərbaycanda ali təhsildə beynəlmiləlləşmə proseslərinə baxış: Mövcud vəziyyət və gələcək istiqamətlər



MÜŞFIQ ORUCOV
Qarabağ Universiteti Tibb və Sağlamlıq Elmləri Fakültəsinin Fundamental Tibb Elmləri bölməsinin rəhbəri,
Təhsil eksperti, tibb üzrə fəlsəfə doktoru, dosent

Son illərdə Azərbaycan ali təhsil sistemi sürətlə dəyişən qlobal təhsil mühiti ilə ayaqlaşmaq üçün ciddi islahatlar həyata keçirir. Bu dəyişikliklərin ən mühüm istiqamətlərindən biri, bəlkə də birincisi, beynəlmiləlləşmədir. Əgər əvvəl beynəlmiləlləşmə prosesinə universitetlərin fəaliyyətinə əlavə bir "vitamin" kimi baxılırdısa, bu gün bu anlayış artıq təhsilin keyfiyyətinin artırılması, qlobal rəqabətə uyğun insan kapitalının hazırlanması və tədqiqat mühitinin gücləndirilməsi üçün strateji bir məcburiyyətə çevrilib. Aparılan müşahidələr göstərir ki, ölkənin ATM-ləri beynəlmiləlləşmədə nəzərəçarpacaq irəliləyiş əldə etsələr də, qarşıda dayanan öhdəliklər və hədəflər daha kompleks yanaşma tələb edir.

Mövcud inkişaf xəttinin təhlili göstərir ki, universitetlər beynəlmiləlləşmənin əhəmiyyətini qəbul edib və bu istiqamətdə müxtəlif strateji addımlar atıblar. Bir çox ATM-lər artıq beynəlmiləlləşmə siyasətləri hazırlayıb, ikili diplom proqramları qurub, Erasmus+ və "Orhun" mübadilə proqramları çərçivəsində mobillik layihələrini genişləndirib, beynəlxalq tərəfdaşlıq şəbəkələrini artırıb və əcnəbi tələbələrin cəlbi üzrə fəaliyyətlərə start veriblər. Bu proses, xüsusilə region universitetlərində yeni dinamika yaradıb: əvvəllər yalnız paytaxtda fəaliyyət göstərən ATM-lərin beynəlxalq əlaqələr sahəsində aktivliyi bu gün bölgələrdə də müşahidə edilir. Bu, Azərbaycanın ali təhsil sisteminin coğrafi baxımdan da beynəlmiləlləşdiyini göstərir.

Lakin təbii ki, beynəlmiləlləşmə yalnız müqavilələrin imzalanması, səfərlərin təşkili və ya əcnəbi tələbələrin sayının artması ilə məhdudlaşmır. Bu proses hərtərəfli institusional dəyişiklik, idarəetmə mədəniyyəti, insan kapitalının inkişafı və davamlı keyfiyyət təminatı tələb edir. Məhz bu mərhələdə universitetlərin az-çox fərqli təcrübə və potensiala malik olduğu görünür. Aparılan sahə baxışları göstərir ki, bir sıra universitetlər beynəlmiləlləşməni strateji idarəetmə səviy-yəsində artıq sistemləşdirib, digərləri isə hələ də daha çox "layihə əsaslı" yanaşmalarla irəliləyir. Bu, bəzən gözə çarpmayan, lakin inkişaf üçün mühüm bir məsələdir.

Azərbaycan universitetlərinin beynəlmiləlləşmə səylərində ən böyük boşluqlarından biri onların idarəetmə modelidir. Beynəlmiləlləşmə prosesinin uğuru üçün məqsədyönlü KPI-ların müəyyən edilməsi, illik beynəlmiləlləşmə hesabatlarının hazırlanması, nəticələrin keyfiyyət təminatı ilə əlaqələndirilməsi və resurs planlamasının strateji əsasda qurulması son dərəcə vacibdir. Lakin sahə təcrübəsi göstərir ki, bu indikatorlar bir çox halda ya yoxdur, ya da institusional səviyyədə sistemli tətbiq edilmir. Bu isə o deməkdir ki, universitetlər beynəlmiləlləşmə fəaliyyətlərinin real təsirini, nəticəsini və dayanıqlılığını dəqiq ölçməkdə çətinlik yaşayır. Əgər beynəlmiləlləşmə prosesinin nə dərəcədə irəlilədiyi ölçülməzsə, növbəti mərhələ üçün düzgün qərarlar qəbul etmək çətinləşir.

İnsan kapitalı məsələsi isə Azərbaycan ali təhsilinin beynəlmiləlləşməsində həlledici faktordur. Akademik heyətin xarici dil bacarıqları, beynəlxalq layihələrdə iştirak təcrübəsi, qrant layihəsi yazmaq kompetensiyası və qlobal

Azərbaycanda ali təhsildə beynəlmiləlləşmə proseslərinə baxış: Mövcud vəziyyət və gələcək istiqamətlər

akademik çevrə ilə işləmə mədəniyyəti universitetlər arasında ciddi fərqlilik göstərir. Bir sıra universitetlərdə bu sahədə əhəmiyyətli potensial mövcuddur, digərlərində isə hələ başlanğıc mərhələsidir. Eyni zamanda, inzibati heyət də beynəlmiləlləşmə prosesinin arxa xəttini təşkil edir və bu kateqoriyanın gücləndirilməsi olmadan beynəlmiləlləşmə səyləri dayanıqlı ola bilməz. Buna görə də ATM-lərin həm akademik, həm də inzibati heyət üçün peşəkar inkişaf proqramlarını genişləndirməsi vacibdir.

Əcnəbi tələbələrin cəlbi Azərbaycan üçün həm strateji, həm iqtisadi, həm də sosial baxımdan vacibdir. Xüsusilə son illərdə ölkəyə gələn əcnəbi tələbələrin sayında artım müşahidə olunsa da, bu artım daha çox məhdud coğrafiyadan gəlir. Gələcək mərhələdə Azərbaycan ali təhsilinin dünyada tanıdılması üçün yeni ölkə bazarlarına çıxış, vahid dövlət səviyyəli təhsil brendinin gücləndirilməsi və tələbə xidmətləri ekosisteminin müasirləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki beynəlxalq tələbə üçün yalnız tədrisin keyfiyyəti deyil, həm də yaşayış şəraiti, kampus həyatı, hüquqi dəstək, sosial inteqrasiya imkanları mühüm rol oynayır.

Tədqiqatın beynəlmiləlləşdirilməsi məsələsində də universitetlərin səyləri müşahidə olunur, lakin bu istiqamət daha çox təkmilləşmə tələb edir. Birgə laboratoriyaların yaradılması, beynəlxalq tədqiqat konsorsiumlarına qoşulma və yüksək impakt faktorlu jurnallarda birgə müəlliflik Azərbaycanın elmi ekosistemi üçün mühüm sıçrayış imkanları yarada bilər. Bu sahədə bəzən motivasiya mexanizmlərinin məhdudluğu, bəzən infrastruktur problemləri, bəzən də elmi əməkdaşlıqların strategiya daxilində sistemləşdirilməməsi tədqiqat beynəlmiləlləşməsini ləngidir. Dünya təcrübəsində universitetlərin qlobal tədqiqat şəbəkələrinə üzvlüyü onların həm elmi nüfuzunu, həm də beynəlxalq maliyyə imkanlarını artırır. Azərbaycan universitetləri üçün də bu istiqamət mühüm inkişaf xəttidir.

Son olaraq, pandemiya dövründən sonra dünyada sürətlə yayılan rəqəmsal beynəlmiləlləşmə yanaşması Azərbaycan ali təhsili üçün də böyük imkanlar açır. Fiziki mobilliklə yanaşı, virtual mobillik, onlayn qonaq mühazirələri, beynəlxalq tərəfdaşlara qoşulan rəqəmsal dərslər və birgə onlayn proqramlar həm maddi baxımdan daha effektiv, həm də daha geniş kütlə üçün əlçatan beynəlmiləlləşmə formasıdır. Bu model xüsusilə region universitetləri üçün beynəlmiləlləşməyə sürətli keçid imkanı yarada bilər.

ATM-lərin akkreditasiyası ilə əlaqədar sahə səfərlərində olan müşahidələrə əsasən qeyd etmək lazımdır ki, Azərbaycan ali təhsilində beynəlmiləlləşmə prosesi artıq sabit addımlarla irəliləyir və regional miqyasda nəzərəçarpacaq uğurlar əldə edilib. Lakin qarşıdakı dövr daha çox strateji dərinləşmə, dayanıqlı strukturlaşma və institusional koordinasiyanı tələb edir. Əldə edilən nailiyyətlər gələcək üçün güclü əsas yaradır, belə ki, əsas məsələ bu təcrübəni sistemli şəkildə genişləndirərək beynəlmiləlləşməni universitet idarəetməsinin ayrılmaz bir komponentinə çevirməkdir. Əgər bu istiqamətdə davamlılıq təmin olunsa, Azərbaycan ali təhsili qlobal rəqabətdə özünü daha inamla və daha güclü şəkildə göstərə bilər.

Ali təhsil sistemində xarici və daxili qiymətləndirmənin əhəmiyyəti



ŞƏFƏQ ŞAHMƏMMƏDOVA
Azərbaycan Dillər Universitetinin Tədris məsələləri üzrə prorektoru,
Psixologiya üzrə fəlsəfə doktoru

Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin, fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, geniş dünyagörüşü, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Təhsilə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Keyfiyyətli təhsil keyfiyyətli gələcək deməkdir.

Ali təhsil sisteminin keyfiyyətinin təmin olunması və davamlı inkişafı hər bir ölkənin sosial-iqtisadi tərəqqisi üçün mühüm əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi ali təhsil sistemində akkreditasiya qiymətləndirilməsi təhsilin keyfiyyətini, şəffaflığını və davamlılığını təmin edən əsas mexanizmdir. Təhsil sahəsində rəqabətliliyin artması, qloballaşma və dövrün, əmək bazarının tələblərinin sürətlə dəyişməsi bu prosesi zəruri edir. Bu baxımdan akkreditasiya qiymətləndirilməsi ATM-lərin fəaliyyətinin obyektiv şəkildə dəyərləndirilməsi, hüquqi-normativ sənədlərə, standartlara uyğunluğunun müəyyən edilməsi və təhsil keyfiyyətinin yüksəldilməsi üçün əsas vasitələrdən biri hesab olunur.

Müasir akkreditasiya ənənəvi "yoxlama" yanaşmasından fərqli olaraq daha çox inkişafyönümlü proses kimi xarakterizə olunur. Onun əsas məqsədi cəzalandırma deyil, ATM-lərin güclü və zəif tərəflərinin müəyyən edilməsi və təhsil keyfiyyətinin yüksəldilməsinə töhfə verməkdir. Akkreditasiya prosesi ATM-lərin tədris, elmi-tədqiqat, beynəlxalq fəaliyyətinin, maddi-texniki bazasının və idarəetmə sisteminin müəyyən olunmuş meyarlara uyğunluğunu müəyyən edir. Bu proses nəticəsində ATM-lər öz güclü və zəif tərəflərini daha aydın şəkildə görür və inkişaf istiqamətlərini müəyyən edə bilirlər. Beləliklə, akkreditasiya qiymətləndirilməsi yalnız nəzarət mexanizmi deyil, həm də inkişaf və təkmilləşmə alətidir.

Müasir dövrdə qloballaşma və beynəlxalq rəqabət, əmək bazarının dinamik şəkildə dəyişən tələbləri, təhsil müəssisələrinin sayının artması, texnologiyanın sürətli inkişafı və yeni tədris metodlarının tətbiqi, eləcə də cəmiyyətin artan gözləntiləri akkreditasiya qiymətləndirilməsinin zəruriliyini daha da artırır.

Universitetlər artıq yalnız yerli deyil, beynəlxalq səviyyədə də rəqabət aparırlar. Bu tendensiya son dövrlərdə ATM-lərin "QS sahələr üzrə dünyanın ən yaxşı universitetlərinin reytinqi"ndə tutduqları yerlərdə nəzərəçarpacaq dərəcədə əks olunur.

Qeyd etdiyim kimi müasir əmək bazarının tələbləri dayanmadan dəyişir, daha çevik, praktik bacarıqlara, geniş dünyagörüşə malik mütəxəssislər tələb edir. Son dövrlərdə yeni ATM-lərin yaranmasının şahidi oluruq ki, bu da keyfiyyət fərqlərini artırır. Rəqəmsal platformalar və innovativ metodlar yeni qiymətləndirmə meyarlarının tətbiqini zəruri edir. Valideynlər, tələbələr və işəgötürənlər daha keyfiyyətli və şəffaf təhsil tələb edirlər. ATM-lər daim təhsilin keyfiyyətini yüksək tutmalıdırlar. Əks təqdirdə, belə yüksək rəqabət şəraitində onların fəaliyyəti sual altına düşə bilər.

Ali təhsil sistemində xarici və daxili qiymətləndirmənin əhəmiyyəti

Akkreditasiya qiymətləndirilməsinin ən mühüm üstünlüklərindən biri təhsil keyfiyyətinin yüksəldilməsinə töhfə verməsidir. Standartlara cavab vermək üçün ATM-lər tədris proqramlarını yeniləyir, müəllim heyətinin peşəkarlığını artırır, maddi-texniki bazasını gücləndirir və tələbələr üçün daha əlverişli təhsil mühiti yaradır. Bu isə nəticə etibarilə məzunların əmək bazarında rəqabət qabiliyyətini artırır.

Digər tərəfdən, akkreditasiya qiymətləndirilməsi ATM-lərin beynəlxalq səviyyədə tanınması baxımından da mühüm rol oynayır. Bu da məzunların ölkə hüdudlarından kənarda təhsilini davam etdirməsinə və ya iş tapmasına şərait yaradır.

Akkreditasiya qiymətləndirilməsi şəffaflıq və hesabatlılığın təmin olunmasına xidmət edir. Bu da təhsil müəssisələrinin məsuliyyətini və cəmiyyətin təhsil sisteminə olan inamını artırır.

ATM-lərin xarici qiymətləndirilməsi qədər daxili qiymətləndirməsi də onların fəaliyyətinin mütəmadi şəkildə təhlil olunması və təkmilləşdirilməsi üçün vacib mexanizmdir. Bu proses universitetin özünü obyektiv şəkildə dəyərləndirməsinə, mövcud vəziyyətini düzgün təhlil etməsinə və gələcək inkişaf istiqamətlərini müəyyən etməsinə imkan yaradır.

Daxili qiymətləndirmənin ən mühüm əhəmiyyəti keyfiyyətin davamlı təmin olunması ilə bağlıdır. Universitetlər tədris proqramlarını, müəllim heyətinin fəaliyyətini, tələbə nailiyyətlərini və infrastruktur imkanlarını mütəmadi olaraq nəzərdən keçirərək çatışmazlıqları aradan qaldıra bilirlər. Bu isə təhsilin səviyyəsinin yüksəlməsinə birbaşa təsir göstərir. Bu proses həmçinin universitet daxilində özünüqiymətləndirmə və məsuliyyət mədəniyyətini formalaşdırır.

Daxili qiymətləndirmənin digər mühüm tərəfi qərarvermə prosesinə dəstək verməsidir. Toplanan məlumatlar əsasında universitet rəhbərliyi strateji planlaşdırma aparır, resursları daha düzgün bölüşdürür və prioritet istiqamətləri müəyyən edir. Bu isə inkişafın daha məqsədyönlü və planlı şəkildə həyata keçirilməsinə şərait yaradır.

Bundan əlavə, daxili qiymətləndirmə universitetlərin xarici akkreditasiya proseslərinə hazırlığında mühüm rol oynayır. Müəssisə əvvəlcədən öz zəif və güclü tərəflərini müəyyən edərək akkreditasiya qiymətləndirilməsi zamanı daha uğurlu nəticələr əldə edə bilir.

ATM-lərin daxili qiymətləndirilməsi sadəcə nəzarət vasitəsi deyil, həm də davamlı inkişafı təmin edən strateji alətdir. Fikrimcə, Azərbaycan ali təhsil sistemində universitetlərin daxili qiymətləndirmə prosesinin aparılması istiqamətində metodiki dəstəyə ehtiyac var.

Ali təhsil sistemində keyfiyyətin təmin olunması üçün həm daxili, həm də xarici qiymətləndirmə mexanizmləri mühüm rol oynayır. Bu iki proses bir-birini tamamlayır və birlikdə daha effektiv nəticələrin əldə olunmasına şərait yaradır. Onların əlaqəliliyi və paralel şəkildə tətbiqi müasir təhsil idarəetməsinin səmərəliliyini artırır. Bu iki qiymətləndirmə növü arasında sıx əlaqə mövcuddur. Daxili qiymətləndirmə xarici qiymətləndirmə üçün əsas baza rolunu oynayır.

Nəticə olaraq, akkreditasiya qiymətləndirilməsi ali təhsildə keyfiyyətin qorunması, inkişafın təmin edilməsi və beynəlxalq rəqabətə uyğunlaşma üçün vacib və zəruri bir prosesdir. Prosesin səmərəliliyinin təmin olunması formalizm, bürokratik yük və subyektiv yanaşmalardan uzaqlaşaraq real nəticələrin ölçülməsinə, innovasiyalara açıq olmağa və yerli kontekstin nəzərə alınmasına yönəlir.

Akkreditasiya prosesi ilə bağlı tələbə təəssüratı



AYTAC YUSİFLİ,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Təhsildə qiymətləndirmə və monitorinq ixtisasının tələbəsi

Akkreditasiya, bir təhsil müəssisəsinin və proqramın müəyyən edilmiş standartlara uyğunluğunun rəsmi şəkildə qiymətləndirilməsi və təsdiqlənməsi prosesidir. Bu prosesdə iştirakım mənim üçün həm peşəkar, həm də şəxsi inkişaf baxımından olduqca dəyərli təcrübə oldu. İlk dəfə real və yüksək məsuliyyət tələb edən mühitdə iştirak etməyim prosesin mahiyyətini daha dərindən anlamağıma imkan yaratdı. Xüsusilə, təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə gələcəyin mütəxəssisi kimi yetişməyimdə mühüm rol oynadı.

Proses zamanı iştirak etdiyim sahə baxışları və müsahibələr mənə keyfiyyət tədqiqat metodlarını praktik olaraq tətbiq etmək imkanı verdi. Bu təcrübə nəticəsində müsahibə aparma, məlumat toplama və onları sistemli şəkildə təhlil etmə bacarıqlarım inkişaf etdi ki, bu da gələcək elmi fəaliyyətim üçün konkret üstünlüklər qazandırdı. Eyni zamanda, Yekun Hesabatın hazırlanmasında iştirakım analitik yazı və məlumatların strukturlaşdırılması sahəsində bacarıqlarımı daha da təkmilləşdirdi.

Bununla yanaşı, komissiya üzvləri ilə əməkdaşlıq çərçivəsində təhsil proqramları, proqram təlim nəticələri və fənn təlim nəticələri kimi anlayışları bir-birindən fərqləndirməyi öyrənməyim, bu sahədə nəzəri biliklərimi daha da möhkəmləndirdi.

Bu mərhələdə komanda işinin nə qədər əhəmiyyətli olduğunu bir daha aydın şəkildə müşahidə etdim. Komanda üzvlərinin hər birinin məsələyə fərqli baxış bucağından yanaşması müzakirələri daha da zənginləşdirdi və nəticə etibarilə daha dolğun, əsaslandırılmış və ədalətli qərarların qəbul edilməsinə şərait yaratdı. Bu baxımdan, müzakirə mühitinin açıq və konstruktiv şəkildə təşkili və hər bir üzvün öz fikrini sərbəst şəkildə ifadə edə bilməsi ümumi işin keyfiyyətinə müsbət təsir göstərdi. Buna görə də belə bir sağlam və dəstəkləyici mühit formalaşdırdığı üçün TKTA-ya və komanda üzvlərinə öz təşəkkürümü bildirirəm.

TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz